Noyabrın 1-də elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Apellyasiya Şurasının növbəti iclası keçirilib.

İclasda Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Keyfiyyətə nəzarət və monitorinq sektorunun məsləhətçisi vəzifəsinə namizədlər Aytac Məmmədova və Firdovsi Paşayevin, Məktəbdənkənar fəaliyyətin təşkili sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizədlər Afaq Nəsirova, Fatimə Qarayeva və Orxan Quliyevin müsahibə nəticələri ilə əlaqədar şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, 2 şikayətin təmin edilməsi və 3 şikayətin təmin edilməməsi barədə qərarlar qəbul olunub.